# Gecikmiş bəraət

**1937-ci ilin repressiyası Azərbaycan xalqının ədəbiyyatına, mədəniyyətinə, tarixinə böyük zərbələr vurdu. Həmin tuthatut illərində neçə-neçə görkəmli ziyalımız, işıqlı insanımız uydurulmuş bəhanələrlə, qurama məhkəmələrlə heç bir günahı olmadan ən ağır cəzaya - güllələnməyə məhkum edildi. Neçəsi soyuq Sibir çöllərinə sürgün olundu və onlar bir daha geri dönmədilər.**



Ötən əsrin 20-ci illərindən başlayan, 1937-ci ildə fəlakət həddinə çatan və bütün ölkəni çənginə alan repressiyanın ağrı-acıları bu gün də qəlbləri göynədir. Ürək ağrıdan odur ki, günahsızcasına güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin arasında Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və tarixinin böyük zəka sahibləri az deyil. Ölümlərindən bir müddət sonra onlara bəraət verilsə də, ağrılara dərman olmadı.

1937-ci ilin repressiya qurbanlarından biri də 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, dövrünün görkəmli nasiri Hacıbaba Hacı Ələsgər oğlu Nəzərli idi. O, 22 mart 1895-ci ildə Şamaxıda dünyaya göz açmışdı. Azərbaycanın görkəmli şairi M.Ə.Sabirin "Ümid" məktəbini bitirmiş, 1930-1933-cü illərdə Moskvada Qırmızı Professura İnstitutunda təhsil almışdı.

Hacıbaba Nəzərli o dövr mətbuat sahəsində də çalışmışdı. Bakıda nəşr edilən "Qızıl əsgər" qəzetinin redaktoru olmuşdu. Ədəbi fəaliyyətə 1925-ci ildən başlamış H.Nəzərli bir-birindən maraqlı publisist yazıları, oçerk və hekayələri ilə oxucuların diqqətini cəlb etmişdi. Geniş ədəbi fəaliyyətinə görə 1929-cu ildə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi seçilmişdi. Oçerk və hekayələri ilə yanaşı, Hacıbaba Nəzərli dram janrında da qələmini sınaqdan keçirmişdi. Müxtəlif illərdə "Yollar", "Yanğın" (şərikli), "Sabir" pyeslərini yazmışdı. Bir-birindən maraqlı pyeslər yazmaqla yanaşı, Hacıbaba Nəzərli tərcümə işi ilə də məşğul olmuş, V.Şekspirin "Maqbet", M.Qorkinin "Yeqor Bulıçov və başqaları" əsərlərini Azərbaycan dilinə çevirmişdir.

1934-cü ildən 1937-ci ilə qədər Azərbaycan Dövlət Dram Teatrının direktoru işləmiş Hacıbaba Nəzərlinin yeni cəmiyyət uğrunda mübarizə, köhnəliyin tənqidi mövzularında qələmə aldığı dörd kitabı - "Casusun yardımçısı", "Qışlaqan kəndə", "Laçın", "Satqın", "Ölülər rəqs edərkən" işıq üzü görmüşdür. Görkəmli nasir həm də dövrünün ictimai xadimlərindən biri olmuşdu. 1935-ci ildə Azərbaycan KP XII qurultayında MK üzvlüyünə namizəd, VII Zaqafqaziya Sovetlər qurultayında isə ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Təəssüflər olsun ki, başının üstünü almış repressiyanın qara buludları onun həm nasir, həm də ictimai xadim kimi fəaliyyət göstərməsinə imkan vermədi. 1937-ci ilin repressiya dalğası Azərbaycanın başqa görkəmli ziyalıları kimi, Hacıbaba Nəzərlinin də ömür və yaradıcılıq yollarını qəflətən kəsdi. Təhlükəsizlik İdarəsinin əməkdaşı Qriqoryanın 9 aprel 1937-ci il tarixli arayışına əsasən, "burjua-millətçi təşkilatının fəal üzvü" kimi həbs olundu. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının fəallarından biri olan Hacıbaba Nəzərli elə həmin rejimin də qurbanı oldu. O, 28 yanvar 1938-ci ildə - 43 yaşında "xalq düşməni" kimi soyuq bir qış günündə güllələndi. Beləliklə, daha bir Azərbaycan ziyalısının ömrünə son qoyuldu, bir evin çırağı söndürüldü.

Hacıbabanın ömür-gün yoldaşını da rahat buraxmadılar. Zivər Nəzərli "vətən xaininin həyat yoldaşı" kimi 10701 istintaq işi ilə 22 noyabr 1937-ci il tarixdən hesablanmaqla 9 aprel 1938-ci ildən cəzasını islah-əmək düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum olundu.

Hacıbala Nəzərlinin ölüm hökmünə qərar verən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 17 il sonra - 6 oktyabr 1956-cı ildə ona bəraət verdi. Bəraət isə yalnız onun yaxınlarına təsəlli idi. Çünki çıxarılan bəraət hökmü zamanı qaytarmaq gücündə deyildi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 may (№96).- S.14.